*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.291-298*

https://doi.org/10.62837/2025.4.291

**AYŞƏN ZEYNALLI ELDAR**
**Bakı Avrasiya Universiteti**
**zeynalli.ayshen@mail.ru**
**https://orcid.org/0009-0005-6357-5578**

# SİYASİ NİTQİN KOMMUNİKATİV XÜSUSİYYƏTLƏRİ (İLHAM ƏLİYEVİN MÜHARİBƏ DÖVRÜ ÇIXIŞLARI ƏSASINDA)

## XÜLASƏ

Məqalədə siyasi nitqin kommunikativ xüsusiyyətlərinin nəzəri tərəfləri araşdırılmışdır. Xüsusilə Prezident İlham Əliyevin müharibə dövründəki çıxışlarına istinad edilərək nəzəri tərəflər praktik olaraq da izah edilmişdir. Siyasi nitq təkcə məlumat ötürmək üçün bir vasitə yox, eyni zamanda kütlə ilə birbaşa əlaqə yaradan əsas kommunikasiya vasitəsidir. Kommunikasiya prosesi siyasi niqtdə əsas vasitələrdən biri kimi çıxış edir və nitqin qurulmasında məqsədyönlü strategiyalardan istifadə edilir. Liderlərin çıxışlarında siyasi nitq auditoriyaya təsir göstərmək, inandırmaq, xalqı səfərbər etmək və liderin legitimliyini əsaslandırmaq üçün istifadə edilir. Bu nitq forması xalqla birbaşa ünsiyyət yaratmaqda, milli ruhu formalaşmasında və tarixi hadisələrin yadda saxlanılmasında mühüm rol oynayır.

Tədqiqatın əsas nümunələri Azərbaycan Prezidenti İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründəki çıxışlardan gətirilmişdir. Burada paralinqvistik vasitələrin nitqə təsir gücü də xüsusilə vurğulanmışdır. Onun sosial media və televiziya vasitəsilə verilən çıxışlarının kommunikativ gücü paralinqvistikanın nəzəri tərəflərini izah emək üçün istifadə olunmuşdur.

Nəticədə siyasi niqtin kommunikasiya vasitəsi kimi yalnız ritorik deyil, eyni zamanda xalqla dialoq qurmağın effektiv vasitəsi olması göstərilmişdir.

**Açar sözlər:** *siyasi nitq, nitq strategiyaları, dil üslubu, İlham Əliyev, bədən dili*

İlham Əliyevin müharibə dövrü çıxışları kommunikativ strukturların güclü şəkildə tətbiq olunduğu, xalqı birləşdirən və mübarizəyə yönəldən nitqlərdir. Bu nitqlərdə istifadə olunan kommunikativ strategiyalar, ideologiyaların təbliğindən tutmuş, xalqın emosional və psixoloji vəziyyətinə təsir edən müxtəlif vasitələrə qədər geniş spektri əhatə edir. İlham Əliyev müharibə dövrü çıxışlarında çox vaxt konkret kommunikativ vəziyyətlərə uyğun olaraq nitqini formalaşdırır. Kommunikativ vəziyyətin başlıca məqsədi mesajın doğru auditoriyaya çatdırılması və mövcud sosial kontekstə uyğunlaşdırılmasıdır. Habermasın (1984) kommunikasiya nəzəriyyəsi nəzərə alınarsa, liderin çıxışları yalnız məlumat ötürməkdən ibarət deyil, həm də cəmiyyətin birliyini qorumaq, müharibə şəraitində xalqın əhval-ruhiyyəsini yüksək saxlamaq və milli məqsədlər uğrunda mübarizəni artırmaqdır. İlham Əliyev 2020-ci

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 291-298*

ilin sentyabr ayında verdiyi bir çıxışında *"Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır*" [2, s. 5] deyərək müharibənin ideoloji əsaslarını qurmuş və həmçinin xalqın milli haqqına əsaslanaraq mübarizəni dəstəkləyən kommunikativ vəziyyət yaratmışdır. Bu, həm də xalqın müharibə məqsədini və məqsədinə nail olma gücünü artırmağa yönəlmiş strateji bir addım idi.

Sosial kontekst hər bir nitqin alıcı tərəfindən necə qəbul ediləcəyini müəyyənləşdirən əhəmiyyətli faktorlardan biridir. Müharibə dövründə İlham Əliyevin çıxışları sosial vəziyyətin təzyiqi altında formalaşır və bu vəziyyətin xüsusiyyətləri nitqin məzmununa təsir edir. Bu nitq forması müharibə şəraitində liderin nitqində pozitiv ton yaratmaq və cəmiyyəti inandırmaq məqsədini güdür. Bu kontekstdə İlham Əliyev müharibə başlayarkən verdiyi bir çıxışında *"Biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik"* [2, s. 8] deyərək müharibənin ideoloji istiqamətini müəyyən edib. Bu cür ifadələr sosial vəziyyətin təzyiqinə qarşı çıxaraq xalqı öz gücünə inandırmış və kollektiv əhval-ruhiyyəni yüksəltmişdir.

Məsələn, İlham Əliyev müharibə zamanı "*Qarabağ Azərbaycandır və nida işarəsi!*" [2, s. 4] ifadəsi ilə çıxış etdi. Bu cür gücləndirici ifadələr həm də müharibənin xalqın öz milli haqqına əsaslandığını və bu mübarizənin uğurlu olacağına inam yaratmışdır. Bu mesaj, yalnız informasiya ötürülməsindən ibarət olmayıb, həm də motivasiya yaratmışdır.

Müharibə şəraitində lider nitqləri yalnız informasiya ötürmə vasitəsi kimi çıxış etmir, həm də xalqı birləşdirmək, mübarizə əzmini artırmaq və milli birliyi təmin etmək məqsədi güdür. İlham Əliyevin müharibə dövrü çıxışlarında da strateji rolun yüksək olduğu açıq şəkildə görünür. Bu çıxışlar həm ideoloji səfərbərlik, həm də emosional gücləndirmə funksiyasını həyata keçirərək müharibənin həm siyasi, həm də sosial tərəflərini hərtərəfli izah edir. İlham Əliyev müharibə dövründə verdiyi çıxışlarda ideoloji səfərbərlik funksiyasını uğurla həyata keçirmişdir. Bu, xalqın milli məqsəd və ideyalar ətrafında birləşməsinə xidmət edir. Hegelin dövlətin ideologiyasını təmin edən liderin rolu ilə bağlı fikirlərini nəzərə alsaq, İlham Əliyevin müharibə dövrü nitqləri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədini hər bir vətəndaşa, xalqın hər bir üzvünə çatdıran güclü ideoloji mesajlar ehtiva edir. 2020-ci ilin oktyabr ayında etdiyi bir çıxışında İlham Əliyev *"Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq!*

*Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"* [2, s. 27] ifadəsini istifadə etmişdir. Bu cümlə ilə o, həm müharibənin ideoloji əsaslarını qurmuş, həm də xalqın mübarizəyə olan dəstəyini artırmağa yönəlmişdir. Xalqın milli həmrəyliyini gücləndirən bu çıxış, cəmiyyətin gücünü birləşdirir və ümumi məqsədlər üçün mübarizəyə səsləyir. İdeoloji səfərbərlik bu kontekstdə yalnız çıxışlar ilə məhdudlaşmır. Həm də ölkənin sosial və siyasi gündəmində milli birliyi qorumağa yönələn hər bir addımda öz əksini tapır. İlham Əliyevin nitqlərində müharibənin məqsədinə uyğun olaraq istifadə edilən cümlələr xalqı birləşdirici və ruhlandırıcı bir məna kəsb edir. Bu da öz növbəsində həm daxili siyasi həmrəyliyi, həm də milli məqsədlər ətrafında birləşməni təmin edir.

Emosional gücləndirmə müharibə dövrü nitqlərində əhəmiyyətli bir yer tutur. İlham Əliyevin çıxışlarında xüsusilə müharibənin ilk günlərində, qorxu və təşvişin yerini inam və mübarizə ruhu almışdır. Tarhanın (2008) emosional ritm nəzəriyyəsinə əsasən, liderlərin nitqləri, həm kollektiv emosiyaların formalaşdırılması, həm də bu emosiyaların mübarizə ruhu ilə əlaqələndirilməsi baxımından mühüm rol oynayır. İlham Əliyev çıxışlarında qorxu və narahatlıq ilə bağlı hissləri azaltdı, xalqı inamlı və mübarizəyə hazır bir ruh halına gətirmək üçün nitqlərində müsbət ifadələrə üstünlük verdi. Məsələn, 2020-ci ilin sentyabr ayında müharibənin ilk günlərində İlham Əliyev belə demişdir: *"Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək"* [2 s.15]. Bu cümlə ilə o, xalqın müharibəyə olan dəstəyini artıraraq inam və motivasiya yaratmışdır.

İlham Əliyevin müharibə dövrü çıxışlarında ideoloji istiqamət vermək və xalqı birləşdirmək məqsədini güdən ritorik vasitələr geniş şəkildə istifadə edilmişdir. Bu çıxışlar sadəcə olaraq müharibənin gedişi barədə məlumat verməkdən ibarət deyil, həm də xalqa mübarizə məqsədini, milli və mənəvi haqqı çatdırmaq və xalqı bir ideoloji əsas ətrafında birləşdirmək məqsədini güdür. Nitqlərdə istifadə olunan ritorik vasitələr, həm də liderin dövlətin milli ideyasına sadiqliyini nümayiş etdirir. İdeoloji istiqamət müharibə dövrü nitqlərində ən güclü şəkildə "biz" və "onlar" ayrımında təzahür edir. Bu ritorik strategiya, xalqı və dövlətin məqsədini digər tərəflərdən, xüsusilə də düşməndən ayırmaq üçün geniş istifadə olunur. Laclau və Mouffe tərəfindən irəli sürülən ideoloji perspektivə əsasən, "biz" və "onlar" qarşıdurması ideologiyanı təsdiqləyən və gücləndirən bir üsul olaraq çıxış edir. İlham Əliyev bu strategiyanı müharibə dövrü nitqlərində istifadə edərək Azərbaycan xalqını və dövlətini "haqlı" və "doğru" tərəf kimi təqdim edir, düşməni isə "işğalçı" və "haqsız" olaraq təqdim edir. Məsələn, İlham Əliyev 2020-ci ilin sentyabr ayında verdiyi bir çıxışında "*Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik"* [2, s.8] ifadəsini işlədərək mübarizənin ideoloji əsaslarını formalaşdırmışdır. Bu cümlə ilə "biz" termini Azərbaycanın haqlı mübarizəsini simvollaşdırır, "onlar" isə işğalçı

düşmənə işarə edir. Bu tip ifadələr xalqın birləşdirilməsinə və mübarizəyə yönəldilməsinə xidmət edir.

İlham Əliyev müharibə dövrü çıxışlarında emosional vurğular və ritorik təkrarlamalardan da geniş şəkildə istifadə edir. Aristotelin (2008) ritorika nəzəriyyəsində təkrarlamalar, izləyicinin emosional vəziyyətini yönəltmək və müəyyən bir ideyanı yaddaşda saxlamaq üçün mühüm vasitədir. İlham Əliyev bu ritorik strategiyanı çıxışlarında haqlı mübarizənin, Azərbaycanın haqqını qorumağın və torpaqlarını azad etməyin vacibliyini bir daha vurğulamaq məqsədilə tətbiq etmişdir. 2020-ci ilin sentyabr ayında verdiyi bir çıxışında İlham Əliyev belə demişdir: *"Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!"* [2, s. 6]. Bu təkrarlanan ifadə ilə həm "Qarabağ"ın Azərbaycanın ayrılmaz hissəsi olduğu ideyasını gücləndirmiş, həm də xalqın və hərbçilərin mübarizəyə olan inamını artırmışdır. Bu cür təkrarlamalar, həm də ritorik təsir yaradır və mesajın qəbul edilməsini asanlaşdırır.

İlham Əliyev müharibə dövrü çıxışlarında məqsədin aydın şəkildə təqdim edilməsinə xüsusi diqqət yetirmişdir.Jungun (2001) arxetiplər nəzəriyyəsinə əsasən liderlər mübarizə prosesini "müdafiə" və "hücum" arxetipləri üzərində quraraq xalqın və dövlətin mübarizəyə olan motivasiyasını artırırlar. İlham Əliyev bu yanaşmanı istifadə edərək mübarizəni yalnız ərazi məsələsi ilə bağlamamış, həm də milli kimlik, haqlı mübarizə və xalqın gələcəyi ilə əlaqələndirmişdir. Məsələn, İlham Əliyev müharibə başlayarkən etdiyi çıxışında *"*Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir*"* [2, s.6] deyərək mübarizənin haqq və ədalət üzərində qurulduğunu qeyd etmişdir. Bu ifadə həm xalqın mübarizəyə inamını artırır, həm də dövlətin haqlı mövqeyini vurğulamaqla ideoloji istiqaməti gücləndirir. Ritorik suallar və çağırışlar, İlham Əliyevin müharibə dövrü çıxışlarında mübarizə ruhunu və xalqın əzmini artıran başqa bir vasitədir. Aristotelin nəzəriyyəsində ritorik suallar dinləyiciləri düşündürmək və onları təxirə salınmaz bir hərəkətə yönəltmək məqsədini güdür. İlham Əliyev müharibə dövrü çıxışlarında ritorik suallardan istifadə edərək xalqı mübarizəyə çağırmış və milli məqsədləri bir daha gündəmə gətirmişdir. Məsələn, 2020-ci ilin sentyabr ayında etdiyi çıxışında İlham Əliyev belə demişdir: *"Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!"* [2, s. 6]. Bu sual həm hüquqi baxımdan müharibənin haqlı tərəfdə olduğunu nümayiş etdirir, həm də xalqın mübarizəyə olan əzmini gücləndirir.

İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründə etdiyi çıxışlar həm paralinqvistik, həm də qeyri-verbal göstəricilər baxımından diqqətçəkici və effektivdir. Paralinqvistika dilin qeyri-verbal ifadə vasitələrini səs tonu, intonasiya, pauza, vurğu və ritmi əhatə edir. Bədən dili isə ünsiyyətin vizual komponenti olaraq liderin emosional durumu və mesajının gücünü auditoriyaya çatdırmaqda əvəzolunmaz vasitəyə çevrilir. Bu vasitələr liderin nitqini sadəcə məzmun olaraq

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.291-298*

deyil, həm də performans olaraq gücləndirir. Səs tonu və intonasiya İlham Əliyevin çıxışlarında emosional ritmin formalaşmasında mühüm rol oynayır. Tarhanın (2008) "emosional dalğa" anlayışına əsasən, liderin nitqindəki səs titrəyişləri və ton dəyişiklikləri auditoriyanın emosional reaksiyasını stimullaşdırır. İlham Əliyev müharibə dövründə verdiyi bəyanatlarda intonasiyanı dəyişməklə çıxışının emosional gərginliyini artırmış, mesajın dərinliyini daha güclü çatdırmışdır.

Məsələn, 2020-ci ilin 4 oktyabr tarixli xalqa müraciətində Prezident İlham Əliyev *"Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!"* [1] dedikdə intonasiya yüksəlmiş, səs tonu möhkəmlənmişdir. Bu ifadə yalnız məna deyil, həm də fiziki təsir daşıyırdı. Həmin an onun danışığında qətiyyət, emosional güc və liderlik enerjisi hiss olunurdu. Nitqlərdəki pauzalar, yəni qısa dayanmalar, emosional və məntiqi vurğuları gücləndirmək üçün istifadə olunan paralinqvistik vasitədir. Knapp və Hall (2010) pauzanı "fikri dərinləşdirmək və auditoriyanı düşünməyə vadar etmək üçün mühüm qeyri-verbal element" kimi təsvir edir. İlham Əliyevin çıxışlarında bu strategiya tez-tez istifadə olunur. 4 oktyabr tarixli çıxışında *"Biz öz torpağımızda döyşürük... (pauza) vuruşuruq..."* [1] cümləsindəki pauza, yalnız cümləni bölmək üçün deyil, həm də həmin sözlərin təsirini auditoriyanın zehnində artırmaq məqsədilə edilmişdir. Bu cür dayanmalar çıxışın ritmində emosional yüksəliş yaradır və liderin mesajını daha yadda qalan edir. Bədən dilinin ən önəmli komponentlərindən biri göz kontaktı və üz ifadələridir. İlham Əliyevin çıxışlarını müşahidə etdikdə görünür ki, o, birbaşa kameraya baxaraq xalqla vizual əlaqə qurur, bu isə psixoloji olaraq "təmasda olmaq" hissi yaradır. Navarro(2008) qeyd edir ki, "göz kontaktı vasitəsilə lider auditoriyada etibar hissi formalaşdırır və çıxışa emosional bağ yaradır". Əliyevin mimikalarında qəzəb, qürur, qətiyyət və bəzən ironik təbəssüm aydın görünür. Məsələn, 8 noyabr 2020-ci il tarixində Şuşanın azadlığı ilə bağlı etdiyi müraciətdə onun mimikası əzəmət və sevincin sintezini əks etdirirdi: *"Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq!"* [2, s. 166] ifadəsi zamanı alnı açılır, baxışları bir nöqtəyə sabitləşir, jestləri isə geniş və vurğuludur. Liderlərin bədən dili çox vaxt emosional ritmlə paralel hərəkət edir. İlham Əliyevin çıxışlarında əllərini yuxarıdan aşağı hərəkətlərlə istifadə etməsi, fikrin yekun vurğusunu və qərarlılığını ifadə edir. Bu jestlər auditoriyada təsir gücünü artırmaq üçün əla vasitədir. Birdwhistellin qeyri-verbal davranışlarla bağlı nəzəriyyəsinə görə, jestlər verbalin kontekstini dəstəkləyir və mesajın effektiv qəbulunu təmin edir. Məsələn, *"Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır"* [2, s. 25] ifadəsi zamanı Əliyev əli ilə masaya yaxın bir hərəkət göstərmiş və bu jest fikrin "qəti nəticə" kimi təqdim edilməsinə xidmət etmişdir.

Siyasi nitqin effektivliyi yalnız mətnin quruluşu və ritorikası ilə deyil, həm də auditoriyanın onu necə qəbul etməsi ilə müəyyən edilir. McQuail (2010) qeyd edir ki, kütləvi kommunikasiyada təsir yalnız göndərilən mesajın məzmunu ilə deyil, həm də onun alıcı tərəfindən necə interpretasiya olunduğu ilə formalaşır. İlham Əliyevin müharibə dövründə etdiyi çıxışlar da məhz bu baxımdan yüksək kommunikativ effektivliyə malikdir: onlar həm strateji məqsədlərə xidmət edir, həm də xalqın emosional və ideoloji ehtiyaclarına cavab verir. İlham Əliyevin müharibə dövründə verdiyi mesajların xalq arasında necə qəbul edildiyini sosial media reaksiyaları, ictimai mitinqlər və bayraqlarla bəzədilmiş evlərdəki vizual simvollarla müşahidə etmək mümkündür. *"Qarabağ Azərbaycandır!"* [2, s. 168] ifadəsi qısa müddətdə milli ideyanın əsas şüarına çevrildi. Bu, mesajın auditoriya tərəfindən nə qədər güclü mənimsənildiyini göstərir.

Müharibə şəraitində kommunikativ ardıcıllıq və davamlılıq da vacib faktorlardan biridir. İlham Əliyevin çıxışları bir-biri ilə bağlı, sistemli və məqsədli şəkildə qurulmuşdur. Onun nitqləri əvvəlcə vəziyyətin ciddiliyini izah edir, sonra hüquqi və ideoloji əsaslandırma verir, ardınca isə xalqı səfərbərliyə çağırır. Bu strukturlaşdırma auditoriyanın mesajı başa düşməsini və qəbul etməsini asanlaşdırır. Məsələn, 27 sentyabr tarixli çıxışında deyir: *"Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir... Bizim işimiz haqq işidir"* [2, s. 4-6]. Bu davamlılıq, auditoriyanın həm emosional sabitliyini qoruyur, həm də fikrin gücünü artırır.

İlham Əliyevin nitqlərinin kommunikativ gücü yalnız müharibə dövrü ilə məhdudlaşmır. Bu çıxışların təsiri, müharibədən sonra da siyasi diskursda, təhsil materiallarında, sosial medianın gündəmində və xalqın yaddaşında öz yerini qoruyur. "Zəfər Günü"nün təsis edilməsi, həmin çıxışlarda verilən mesajların rəsmi ideologiyaya çevrilməsinin göstəricisidir. Bu nitqlər milli ideologiyanın kommunikativ əsaslı formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Onlar təkcə qələbə haqqında informativ çıxışlar deyil, eyni zamanda xalqın gələcək şüurunun əsasını qoyan ifadələr kimi tarixiləşmişdir. Onun İkinci Qarabağ müharibəsi dövründə etdiyi çıxışlar yüksək kommunikativ effektivliklə səciyyələnir. Bu nitqlər vasitəsilə lider informasiya verir, emosional təsir yaradır, ideoloji istiqamət göstərir və milli birliyi gücləndirir. Auditoriya bu çıxışları yalnız qəbul etmir, eyni zamanda onları mənimsəyərək gündəlik siyasi və mədəni davranışlara çevirir. Beləliklə, İlham Əliyevin nitqləri həm siyasi, həm də kommunikativ baxımdan nümunəvi çıxışlar olaraq tarixə düşmüşdür.

## ƏDƏBİYYAT

1. Aristotel. Ritorika. "Turan Nəşrlər evi", – Bakı: 2008. – 264 s.
2. Əliyev İ. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 04 oktyabr tarixində xalqa müraciəti. Bakı, 2020. https://president.az/az/articles/view/41713
3. Əliyev İ. Prezident İlham Əliyevin 2020-ci ildəki çıxışlarının toplusu. Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2022. 216 s. https://files.preslib.az/projects/zefer/az/prezident.pdf
4. Habermas Y. The Theory of Communicative Action. Volume I: Reason and the Rationalization of Society. – Boston: Beacon Press, 1984. – 465 s.
5. Jung C. G. The Archetypes and the Collective Unconscious. – Princeton: Princeton University Press, 2001. – 504 s.
6. Knapp M. L., Hall J. A. Nonverbal Communication in Human Interaction. – Boston: Wadsworth Cengage Learning, 2010. – 512 s.
7. McQuail D. McQuail's Mass Communication Theory. – Los Angeles: SAGE Publications, 2010. – 632 s.
8. Navarro J. What Every BODY is Saying: An Ex-FBI Agent's Guide to Speed-Reading People. – New York: Harper Collins, 2008. – 272 s.
9. Tarhan N. Pozitiv Psikoloji – İstanbul: Timaş Yayınları, 2018. – 304 s.

**Ayshan Zeynalli Eldar**

## COMMUNICATIVE FEATURES OF POLITICAL SPEECH (BASED ON ILHAM ALIYEV'S WAR-TIME ADDRESSES)

## RESUME

The article explores the theoretical aspects of the communicative features of political speech. Specifically, it references President Ilham Aliyev's speeches during the wartime period to explain these theoretical aspects in practice. Political speech is not only a means of conveying information but also serves as a primary tool of communication that establishes direct contact with the masses. In political discourse, communication functions as one of the main tools, and purposeful strategies are employed in structuring speech. In the speeches of leaders, political discourse is used to influence the audience, persuade them, mobilize the people, and justify the legitimacy of the leader. This form of speech plays a crucial role in establishing direct communication with the public, shaping national spirit, and preserving the memory of historical events.

The main examples of the study are drawn from the speeches of the President of Azerbaijan, Ilham Aliyev, during the Second Karabakh War. The impact of paralinguistic elements on speech is particularly emphasized. His speeches delivered

via social media and television have been used to illustrate the theoretical aspects of paralinguistics.

As a result, political speech has been shown to function not only as a rhetorical tool but also as an effective means of establishing dialogue with the public.
**Key words:** *political speech, speech strategies, language style, Ilham Aliyev, body language*

**Айшен Зейналлы Элдар**

**КОММУНИКАТИВНЫЕ ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКОЙ РЕЧИ (НА ОСНОВЕ ВОЕННЫХ ВЫСТУПЛЕНИЙ ИЛЬХАМА АЛИЕВА)**

**РЕЗЮМЕ**

В статье рассматриваются теоретические аспекты коммуникативных особенностей политической речи. Особое внимание уделяется анализу выступлений Президента Азербайджана Ильхама Алиева в период Второй Карабахской войны, что позволяет на практике проиллюстрировать теоретические положения. Политическая речь рассматривается не только как средство передачи информации, но и как важнейший инструмент непосредственной связи с массами. Процесс коммуникации выступает одним из ключевых элементов политической речи, при построении которой используются целенаправленные стратегии. В речах лидеров политическая речь служит средством воздействия на аудиторию, убеждения, мобилизации народа и обоснования легитимности власти. Данный тип речи играет значительную роль в установлении прямого контакта с народом, формировании национального духа и сохранении памяти о исторических событиях.

В качестве основных примеров исследования использованы выступления Президента Азербайджана Ильхама Алиева в период Второй Карабахской войны. Особо подчеркнута сила воздействия паралингвистических средств на речь. Коммуникативная сила его выступлений, транслируемых через социальные сети и телевидение, использована для объяснения теоретических основ паралингвистики.

В результате показано, что политическая речь как средство коммуникации является не только риторическим инструментом, но и эффективным способом установления диалога с народом.

**Elmi rəhbər: Rasim Heydərov Arif**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**